# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№ 259/1** **27 dekabr 2014-cü il**

**"Auditorların və auditor təşkilatlarının qeydiyyatına və akkreditasiyaya dair metodik göstəriş" barədə**

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli, 782 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar»a, "Azərbaycan Respublikasinda auditor xidmətinin inkişaf Konsepsiyası"nın (2012-2020-ci illər) VI bölməsinin 9-cu bəndinə və Azərbaycan Respublikası Auditorlar Palatasının 2014-2016-cı illər üzrə iş planının 1.5-ci bəndinə uyğun olaraq tərtib olunmuş və yenidən işlənilib hazırlanmış "Auditorların və auditor təşkilatlarının qeydiyyatına və akkreditasiyaya dair metodik göstəriş" barəsində sədrin elmi-metodik məsələlər üzrə muşaviri N.Talıbovun təqdim etdiyi materialı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

**1.** "Auditorların və auditor təşkilatlarının qeydiyyatına və akkreditasiyaya dair metodik göstəriş"təsdiq edilsin (əlavə olunur).

**2.** "Auditorların və auditor təşkilatlarının qeydiyyatına və akkreditasiyaya dair metodik göstəriş"in tətbiqi üzrə müvafiq işlərin həyata keçirilməsi Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) tapşırılsın.

**3.** Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov), Sədrin müşaviri F.Qarayevə və Aparatın İnformasiya texnologiyaları üzrə mütəxəssisi R.Ələkbərova tapşırılsın ki, bu qərarın və "Auditorların və auditor təşkilatlarının qeydiyyatına və akkreditasiyaya dair metodik göstəriş"in mətninin Palatanın internet səhifəsində Azərbaycan, ingilis və rus dillərində yerləşdirilməsini təmin etsinlər.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**